

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 155 (21.056)

*16 avqust 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Avqustun 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayser ilə görüşmüşdür.



Ali Məclisin Sədri qonağı salamlamış, ötən dövrdə Pakistanın ölkəmizdə fəaliyyət göstərən səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfər etdiklərini və qarşılıqlı əməkdaşlıq üçün səylər göstərildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Pakistan arasında müxtəlif istiqamətlər üzrə əlaqələr yaradılmışdır.

Azərbaycanla Pakistan arasında beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığın, eləcə də qardaş və dost ölkənin xarici siyasət sahəsində tutduğu ədalətli mövqeyin məmnunluq doğurduğunu bildirən Ali Məclisin Sədri səfirə diplomatik fəaliyyətində uğurlar arzulamışdır.

Səmimi münasibətə görə minnətdarlıq edən Xalid Usman Qayser muxtar respublikanın 90 illik yubiley tədbirində iştirakını xatırlatmış, Naxçıvanda bütün sahələr üzrə inkişafın və mövcud sabitliyin məmnunluq doğurduğunu bildirmişdir. Səfir Azərbaycan-Pakistan əlaqələrinin inkişafında ümummilli liderimiz Heydər Əliyevin xidmətlərini xüsusi vurğulamış, mövcud əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsi istiqamətində səyini artıracağını ifadə etmişdir.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi diqqətə çatdırılmış, əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şərur Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilmişdir



Şərur Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla əlaqədar yığıncaq keçirilib. Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açaraq məruzə ilə çıxış edib. Qeyd olunub ki, avqust ayının 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrasının təmin olunması və payız-qış mövsümünə hazırlıqla əlaqədar Şərur rayonunda müvafiq işlər görülüb, bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Rayonda əhalinin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları istifadəyə verilib. Bundan başqa, alternativ enerji mənbələrindən istifadə olunması istiqamətində müəyyən işlər görülür.

Vurğulanıb ki, rayon elektrik şəbəkəsi mövcud elektrik xətlərində dayaqlararası məsafələrin standartlara uyğunluğuna nəzarəti gücləndirməli, istifadə müddəti başa çatmış elektrik dirəkləri və elektrik xətlərini yeniləməli, sayğacdankənar elektrik enerjisindən istifadə hallarının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirləri davam etdirməlidir. Elektrik enerjisində texniki itki minimuma endirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Rayon Qaz İstismarı İdarəsi də payız-qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün qaz təsərrüfatına mütəmadi olaraq texniki baxış keçirməli, yaradılmış mal-material ehtiyatından səmərəli istifadə olunmalıdır. Qaz xətlərindəki nasazlıqlar və sayğacdankənar istifadələr vaxtında müəyyən edilməli və aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Qarşıdan gələn payız-qış mövsümü dövründə rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fasiləsiz işini təmin etmək üçün 104 min 940 litr ağ neftə, 265 kvadratmetr şüşəyə, 252 ədəd şiferə, 469 metr polietilenə ehtiyac vardır ki, bu da bölgü əsasında həmin müəssisələrə çatdırılacaqdır.

"Şərur şəhərində 17 çoxmərtəbəli bina, 64 idarə və müəssisənin inzibati binası, o cümlədən rayon üzrə 41 təhsil, 41 tibb və 69 mədəniyyət müəssisəsi müasir istilik sistemi ilə qızdırılacaq", – deyən icra başçısı əlavə edib ki, bunun üçün 157 ədəd fərdi qazanxana mövcuddur. Qazanxanaların çoxluğu bu sahəyə ciddi nəzarət olunmasını tələb edir. Ona görə də qazanxanalarda işləmək üçün indidən mütəxəssislər hazırlanmalıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi qayğısı sayəsində son dövrlər Şərurda 840 ton tutumu olan 4 soyuducu anbar quraşdırılıb, indiyədək həmin anbarlara 207 ton kartof tədarük edilib. Bu işlər bundan sonra da davam etdirilməli, rayon İcra Hakimiyyətinin Aqrar məsələlər şöbəsi soyuducu anbarlara meyvə və tərəvəzin tədarükünü nəzarətdə saxlamalı, bu işdə sahibkarlara əməli köməklik göstərməlidir. Əhalinin içməli su təminatı da daim diqqət mərkəzində saxlanılmalı, tərtib olunmuş qrafikə ciddi əməl edilməlidir. Sıradan çıxmış subartezian quyularının yenidən istismara verilməsi vaxtlı-vaxtında öz həllini tapmalıdır. Rayon Rabitə İdarəsi payız-qış mövsümündə əhaliyə rabitə xidmətinin lazımi səviyyədə təşkili üçün tədbirlər müəyyənləşdirib həyata keçirməlidir.

Sonra məruzə ətrafında payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı aid təşkilatların nümayəndələrinin çıxışları olub.

Müşavirəyə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vurub.

*Avqustun 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi əməkdaşlarının iştirakı ilə "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar keçirilib.*

## Dövlət qulluqçularının etik davranış qaydaları mövzusunda seminar



Tədbiri giriş sözü ilə komissiyanın sektor müdiri Arzuman İmanov açaraq dövlət qulluğuna qəbulun əsas prinsipləri və komissiyanın fəaliyyəti haqqında seminar iştirakçılarına məlumat verib.

Komissiyanın şöbə müdiri Rafiq Nəcəfov çıxış edərək qeyd edib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Şöbə müdirinin sözlərinə görə, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borclarını səmərəli yerinə yetirməyə borcludurlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını uca tutmağa borcludur. Dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə çalışmalıdır. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə digər dövlət qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidir.

Qeyd edilib ki, dövlət qulluqçusu bütün şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrini yerinə yetirməsinə təsir etməsinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalı, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Sərhəd-yaşayış məntəqəsində yeni quruculuq ünvanları





*Şahbuz rayonunun Gömür kəndinə də muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq işlərindən pay düşüb. 2007-ci ildə bu yaşayış məntəqəsində bir neçə quruculuq tədbiri həyata keçirilib.*

Həmin tədbirlərin davamı kimi cari ildə də kənddə inşaat işləri aparılır. Belə ki, 2007-ci ildə inşa edilən məktəb binası yenidən qurulur. Yeni bina 110 şagird yerlik nəzərdə tutulub. İnşaatçılara hərtərəfli şərait yaradılıb. Buraya kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verir.

Digər bir obyekt kənddə fəaliyyət göstərən dövlət qurumlarının birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin kənddə rabitə evi və poçt bölməsi də yaradılacaqdır. Burada abunəçilərə yüksək səviyyədə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet və digər elektron xidmətlər təklif olunacaqdır.

Kənd sakinləri kənddə inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Hazırda obyektdə son tamamlama işləri aparılır.

# Münasib qiymət, yüksək keyfiyyətin ünvanı – "Cahan" Alış-Veriş Mərkəzi

***"Cahan Holdinq" Şirkətlər İttifaqı ərzaq məhsulları, tikinti materialları istehsal edən zavod və fabriklərlə yanaşı, artıq yeni xidmət sahəsinin yaradılmasına da nail olub, 2011-ci ilin oktyabr ayında istifadəyə verilən ticarət mərkəzində alıcılara nümunəvi xidmət göstərilməsi üçün hərtərəfli şərait yaradılıb. Ümumi sahəsi 10 min kvadratmetr olan ticarət mərkəzində Almaniya, Yaponiya, Cənubi Koreya və Türkiyə istehsalı olan texniki avadanlıqlar quraşdırılıb.***





Ticarət mərkəzində 21 bölmədə müxtəlif çeşiddə, yəni bir binanın inşa olunmasından ev əşyaları ilə təminatınadək mal və materialların topdan və pərakəndə satışı həyata keçirilir, mallar isə orta qiymətdən 10-20 faiz ucuz satılır. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, Amerika Birləşmiş Ştatları, Almaniya, Türkiyə, İtaliya, Yaponiya və Cənubi Koreya istehsalı olan məhsullar da satılır. Mərkəzdə müştəri xidməti və satışdan sonrakı xidmət sistemi müasir standartlara uyğun qurulub. Belə ki, burada çalışan əsas xidmət heyəti Türkiyə Respublikası və Birləşmiş Ərəb Əmirliklərində kurs keçib. Dizayn, malların çatdırılması və quraşdırılması xidməti alıcıların rahatlığının təmin olunması, eləcə də göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

"Cahan" Alış-Veriş Mərkəzində (AVM) idarəetmə, satışın təşkili, mal təminatı, mühasibat sistemi bu sahədə dünyada şəbəkə şəklində fəaliyyət göstərən böyük firmaların iş təcrübəsi öyrənilməklə həyata keçirilir. Müəssisənin Bakı şəhərində, Türkiyə Respublikasında, Çin Xalq Respublikasında, Birləşmiş Ərəb Əmirliklərində nümayəndəlikləri fəaliyyət göstərir və "Cahan" AVM-in satınalma bölməsinin sifarişləri əsasında mal tədarük olunur. Həmçinin AVM-in satış, satınalma, mühasibat və sair bölmələrinin işçiləri də mütəmadi olaraq bu nümayəndəliklərə ezam olunur, bu sahədə müasir dünya təcrübəsi öyrənilir.

"Cahan" AVM-də kredit bölməsi də fəaliyyət göstərir ki, burada şirkətin daxili imkanları hesabına vətəndaşlara 9 aylıq faizsiz kreditlə mal əldə etmək imkanı yaradılıb. Malların kreditlə verilməsi prosesi sadələşdirilmiş formada – mal və material alan vətəndaşın və zamin duran şəxsin şəxsiyyət vəsiqələrinin surətləri təqdim olunmaqla aparılır. Həmçinin alış-veriş mərkəzindən mal alan müştərilərə hər 70 manat üçün bir uduş kuponu verilir, həmin uduş kampaniyası bayram və əlamətdar günlərdə həyata keçirilir. Məlumat üçün qeyd edək ki, ticarət mərkəzində fəaliyyətə başladığı 2011-ci ilin oktyabr ayından ötən dövr ərzində üç dəfə uduş kampaniyası keçirilib. Birinci və ikinci dəfə keçirilən uduş kampaniyasının hər birinə 1, üçüncü dəfə keçirilən uduş kampaniyasına isə 2 avtomobil çıxarılıb. Bu kampaniyalar zamanı 2 ədəd "OPEL", 2 ədəd "NAZ-Lifan" markalı avtomobil və 100-dən çox bahalı hədiyyələr udulub. Həmçinin alış-veriş mərkəzində ayrı-ayrı vaxtlarda 10 faiz həcmində endirim kampaniyaları keçirilir. Həyata keçirilən bu tədbirlər alıcıların cəlb olunması ilə yanaşı, hər bir müştərinin münasib qiymətə daha keyfiyyətli məhsullar əldə etmələrinə xidmət edir ki, bu da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır.

"Cahan" AVM Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) dünyada tanınmış şirkət və firmalarla əlaqələr quraraq mənşə sertifikatı olan daha keyfiyyətli mal və materialların muxtar respublikamıza idxal olunması üçün mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərir. Hazırda alış-veriş mərkəzi dünyanın 42 şirkət və firmalarının Naxçıvan Muxtar Respublikasında daimi satış nümayəndəsi və ya satış təmsilçisidir. Alış-veriş mərkəzində marketinq işi günün tələbləri səviyyəsində qurulub. Daxili bazarın tələbatı öyrənilməklə hər hansı bir malın sifarişi vaxtında verilir və alınan malların keyfiyyət göstəriciləri nəzərə alınmaqla dünya bazarında tanınmış şirkətlərdən idxal olunur. Yəni xarici ölkə və yerli istehsal mallarının satışı alıcıların arzularına və istəklərinə uyğun seçim etməyə imkan verir. Yüksək keyfiyyəti ilə seçilən bu məhsullar beynəlxalq standartlara tam uyğundur. Təkcə bir faktı qeyd edək ki, elektron avadanlıqlar Cənubi Koreyanın "Samsunq", mebellər Türkiyənin "Mondi", "Melinos", "İstiqbal", xalçalar "Gümüş suyu", ev əşyaları "Emsan", "Arzum", inşaat materiallarından metlax və kafellər "Çanaqqala Seramik", "Uşaq seramik" firmalarından alınıb gətirilir.

Onu da qeyd edək ki, ticarət mərkəzində POS-terminallar da quraşdırılıb, alınan mal və materialların pulunun ödənilməsi plastik kartlar, nağd ödəmələr isə nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilir. Ötən dövr ərzində münasib qiymət, yüksək keyfiyyət prinsipi ilə işləyən "Cahan" AVM kifayət qədər alıcı cəlb etməklə muxtar respublikamızda ən böyük vergi ödəyicilərindən birinə çevrilib.

Dünya təcrübəsindən istifadə etməklə nümunəvi xidmət göstərilən "Cahan" AVM MMC-nin maddi-texniki bazası ildən-ilə daha da möhkəmləndirilir. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilib, yeni Əyləncə və İstirahət Mərkəzi istifadəyə verilib. Mərkəz 38 min kvadratmetr sahədə yaradılıb. Tikintisinə 2013-cü ildən başlanılan mərkəzdə istirahət edənlərə nümunəvi xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb, burada ikimərtəbəli bina inşa edilib. Binanın birinci mərtəbəsində geyim mağazası, 2 kafe və sahəsi 1230 kvadratmetr olan örtülü oyun salonu vardır. Geyim mağazasında dünyanın məşhur geyim brendləri olan 14 firmanın məhsulları alıcılara təklif olunur. Kişi, qadın və uşaq bölmələrindən ibarət mağazada müştərilərə yüksək xidmət göstərilir.

Binanın ikinci mərtəbəsindəki mebel dəstlərinin satış bölməsində xarici ölkə və yerli istehsal məhsullarının satışı həyata keçirilir. Çeşid bolluğu alıcıların arzularına və istəklərinə uyğun səmərəli seçim etməyə imkan verir. Yüksək keyfiyyəti ilə seçilən bu məhsullar beynəlxalq standartlara tam uyğundur. Burada mebel dəstlərini 9 aylıq faizsiz kreditlə almaq mümkündür.

Əyləncə və İstirahət Mərkəzinin həyətində 33 metr hündürlüyündə, 144 yerlik 24 kabinəli karusel, 8 yerlik 120 dərəcəli yelləncək, 32 yerlik uşaq maşını, qatar və uşaqlar üçün nəzərdə tutulmuş 4 idman qurğusu vardır. Mərkəzin həyətində böyüklərin istirahəti üçün 1 kafe fəaliyyət göstərir. Həmçinin burada 1 fəvvarə və 4 hovuz da istifadəyə verilib, kukla teatrının tamaşalarının göstərilməsi üçün səhnə yaradılıb. Əyləncə və İstirahət Mərkəzində yaradılan şərait uşaqların istirahətinin səmərəli təşkili ilə yanaşı, həm də onların psixoloji hazırlıq səviyyələrinin yüksəldilməsi və əqli inkişafları baxımından əhəmiyyətlidir.

"Cahan Holdinq" Şirkətlər İttifaqının ticarət mərkəzində də yenidənqurma işləri aparılıb, binanın birinci mərtəbəsində ərzaq məhsullarının və gündəlik tələbat mallarının satışı həyata keçirilən yeni xidmət sahəsi, çörək və Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, xarici ölkələrdə istehsal edilən və mənşə sertifikatı olan məhsullar da satışa çıxarılır. Hazırda ticarət mərkəzində fəaliyyət göstərən çörək və Şərq şirniyyatları sexinin məhsullarına böyük alıcı tələbatı vardır. Binanın ikinci mərtəbəsində elektrotexnika avadanlıqlarının və uşaqlar üçün əyləncə qurğularının satışı bölmələri yerləşir. Burada dünyanın qabaqcıl şirkətlərinin elektron avadanlıqlarını almaq və sifariş vermək mümkündür.

Mərkəzin inşaat materiallarının satışı binasında bütün növ tikinti materiallarının topdan və pərakəndə satışı təşkil olunub, anbar istifadəyə verilib. Burada 35 min addan çox məhsulun satışa çıxarılması mənzil təmiri, ev tikintisi və inşaat işləri zamanı alıcılara geniş seçim imkanı yaradır. Həmçinin Naxçıvan dairəvi avtomobil yolunun kənarında ayrılmış ərazidə "Cahan" inşaat materiallarının satış mərkəzi istifadəyə verilib ki, burada da ağır inşaat materiallarının satışına və yük avtomobillərinin şəhərə daxil olmadan hərəkətinə əlverişli şərait yaradılıb.

*Müasir görkəmi və memarlıq üslubu ilə seçilən ticarət mərkəzi əhalinin məşğulluğunun təmin olunmasına da öz töhfəsini verib. Hazırda "Cahan" AVM MMC-də 310 nəfər çalışır.*

**Kərəm HƏSƏNOV**

# Marketinq müasir idarəetmənin əsasıdır

Ümummilli lider Heydər Əliyevin belə bir fikri var: ***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".*** Müasir günümüzdə bu fikrin təsdiqini ölkəmizin dinamik sosial-iqtisadi inkişafında daha aydın görürük. Hamımıza məlumdur ki, iqtisadi inkişafa nail olmadan heç bir sahədə uğur qazanmaq mümkün deyil. Təbii ki, müasir iqtisadiyyatın inkişafı iqtisadi idarəetmənin əsasları üzərində qurulur. Bu əsaslar isə müasir istehlakçıların tələb və maraqlarının tam ödəndiyi zaman düzgün istiqamətə yönəlir və bu yanaşmada "marketinq" dediyimiz fəaliyyət növü önə çıxır. "Bu gün bütün sahələrin inkişafı marketinq fəaliyyəti üzərində qurulub", – deyən iqtisadçı-ekspertlərin yanılmadığının elə bu kiçik yazıda bir daha şahidi olacağıq. Ancaq əvvəlcə gəlin marketinqin nə olduğunu aydınlaşdıraq, ölkəmizdə marketinq fəaliyyətinin bugünkü mənzərəsinə nəzər yetirək.

Qeyd edək ki, "marketinq" ingilis sözü olub, Azərbaycan dilinə hərfi tərcüməsi "bazarda fəaliyyət" deməkdir. Müasir dövrdə marketinq fəaliyyətinə çox tərif verilib. Lakin bu sahədə aparıcı mütəxəssislərdən biri olan P.Drükerin marketinq haqqında dediyi bu fikir diqqəti daha çox cəlb edir: "Marketinqin məqsədi müştərini elə dərk etmək və başa düşməkdir ki, əmtəə və ya xidmət sonuncuya tamamilə münasib olsun, yəni məhsulu özü-özünü satsın".

Marketinq bir iqtisadi fəaliyyət sahəsi kimi ötən əsrin əvvəllərində Amerika Birləşmiş Ştatlarında meydana gəlib və məhsul satışlarında olan çətinliklərlə əlaqədar inkişaf edərək digər kapitalist ölkələrinə də yayılıb. Ona görə kapitalist ölkələri deyirik ki, məsələn, keçmiş SSRİ azad bazar iqtisadiyyatından uzaq olduğuna görə burada marketinqin tətbiqi mümkünsüz idi və hər şey standart planlaşma üzərində qurulmuşdu. Lakin marketinq mürəkkəb, eyni zamanda dinamik sistem olub, müəssisə, şirkət və sairin fəaliyyətinin idarə olunmasını, bazara hansı yollarla çıxmasını və uğur əldə etməsini təmin edir. Ümumilikdə, belə qəbul edək ki, marketinq uyğun məhsulun və ya xidmətin uyğun yerdə və uyğun qiymətlərlə alıcıya çatdırılması üçün aparılan fəaliyyətdir və o, iqtisadi, sosial, texniki, təşkilati və sair istiqamətləri özündə birləşdirən idarəetmənin aparıcı, eyni zamanda həlledici funksiyasıdır. Bir məhsulun istehsalından istehlakına qədər keçən yola nəzər salmaq kifayətdir ki, marketinq fəaliyyətinin necə böyük əhəmiyyət kəsb etdiyini görək. Bu gün marketinqin tətbiqi tələbatın və qiymətin öyrənilməsini, məhsulun keyfiyyətli istehsalını, malların düzgün saxlanılması və daşınması proseslərində mütərəqqi üsulların həyata keçirilməsini, reklamdan istifadə edilməsini və digər mühüm prosesləri nəzərdə tutur. Və ən əsası marketinq insan fəaliyyətidir, biznesdə uğurun əsas şərtidir. İndi isə marketinqə ölkəmizin simasında nəzər salaq.

Bəri başdan qeyd edək ki, ölkəmizdə marketinqin inkişafı hələ də tələb olunan səviyyədə deyil. Bunun bir çox səbəbləri var. Marketinq dinamikliyi, operativliyi və praktikanı sevən sahədir. Çünki marketinqdə hədəf seçmək, bu hədəf uğrunda mübarizə aparmaq və nəhayət, ona çatmaq istəyi var. Bu ardıcıllığın uğurlu davam etməsi isə yalnız o halda mümkün ola bilər ki, istehlakçı istəklərini vaxtında, dəqiq və rahat şəkildə ödəyə biləsən. Yalnız yenilikçi olan, mütəmadi olaraq bazar araşdırmaları aparan marketoloqların fəaliyyəti çalışdığı müəssisə üçün faydalı olur. Ölkəmizdə marketinqin indiyədək zəif inkişaf etməsinin əsas səbəbi isə, bir çox ekspertlərin də qeyd etdiyi kimi, ümumi bazarda yetərincə rəqabətin olmamasıdır. Nəzərə alaq ki, Azərbaycan inkişaf etməkdə olan ölkədir. İnkişaf etməkdə olan ölkələrin bazarlarında isə müəyyən qədər boş sektorlar olur. Boş sektorların olduğu bazarlarda isə rəqabət istənilən səviyyədə olmur. Ancaq bununla yanaşı, rəqabətqabiliyyətli məhsul istehsal edən sahələr də az deyil. Gəlin hər birimiz üçün daha münasib olan belə sahələrdən birinə – çörək istehsalı sahəsinə nəzər salaq. Yadımıza salaq, muxtar respublikanın iqtisadi blokada vəziyyətində olduğu dövrlərdə Naxçıvan şəhərində cəmi bir-iki çörək istehsalı müəssisəsi var idi ki, bu müəssisələr, belə demək mümkünsə, müştəri kasadlığı yaşamırdı. Çünki müştərilər yalnız çörək almaq istəyirdilər. Ancaq bu gün müştərilər təkcə çörək deyil, həm də həmin çörəkdə əlavə keyfiyyətlər axtarırlar. Müasir çörək alıcısı çörəyin tərkibindən tutmuş çəkisinədək, bişirilmə texnologiyasından qablaşdırılmasına, daşınmasına, piştaxtada saxlanılmasına qədər bütün prosesləri bilir və bunu yeri gəldikdə tələb etməyi bacarır. Əgər bu sadalanan proseslərdən biri onun üçün müəmmalı görünərsə və ya istəyini təmin etməzsə, həmin istehsal müəssisəsi həm müştərisini itirəcək, həm də nüfuzunu. Elə buna görə də bu gün çörək istehsalçılarını düşündürən əsas məsələ keyfiyyətli çörək istehsal etməklə istehlakçı tələbatlarını yüksək səviyyədə ödəməkdir. Məhz bu sadaladıqlarımız düzgün marketinq fəaliyyəti nəticəsində qurulur. Nəzərə alaq ki, çörək istehsalı müəssisələri işçi sayına görə ən az kollektiv sayılmaqla həm də daxili tələbatın təmin edilməsinə yönəlmiş istehsal müəssisələridir. Daha böyük həcmdə, həm də ixracyönümlü məhsul istehsal edən müəssisələrdə isə marketinq işinin düzgün qurulmaması, sözün əsl mənasında, fəlakətə çevrilə bilər.

Ölkə iqtisadçılarının təhlillərinə görə, Azərbaycanda son iki ildə marketinqin inkişafında müəyyən irəliləyişlər müşahidə olunmaqdadır. Bu yaxınlarda ölkəmizdə Milli Marketinq Forumunun keçirilməsi də bu sahənin inkişaf etdirilməsinə olan diqqət və marağın nəticəsidir.

Qeyd edək marketinq fəaliyyəti, sadəcə, biznesdə tətbiq olunmur. Marketinq bu gün həyatımızın bir parçasına çevrilib. Bunu necə başa düşmək olar? Məsələn, əksər valideynlər nə zamansa ailədə övladına "yaxşı oxusan, sənə filan hədiyyə alacağam və yaxud bunu etsən, səni gəzməyə aparacağam və sair" deyib, övladlarına "həvəsləndirici kampaniyalar təqdim edirlər". Və ya mən bu yazını hazırlayarkən oxucu üçün maraqlı olsun deyə, burada bir neçə misal çəkmişəm. Birinci misalda valideynin məqsədi övladının yaxşı oxumağıdırsa, ikinci misalda yazının oxucular tərəfindən maraqla oxunmasıdır. Hər iki halda burada marketinq elementlərindən istifadə edilib: hədəf məqsədə çatmaqdır. Marketinqin əsas vəzifəsi inandırmaq olduğundan burada da əsas məqsəd inandırmaqdır. Müştəri də belədir: ona məhsulu satmağın əsas yolu onu inandırmaqdır. Məgər bu gün dünyanın ən keyfiyyətli avtomobil, telefon, mebel və sair məşhur brendləri bizi (istehlakçıları) inandırmaqla bu yüksəlişi əldə etməyiblərmi?

Gün ərzində müxtəlif informasiya vasitələri ilə istər-istəməz hansısa məhsulun reklamı ilə rastlaşırıq. Burada əsas məqsəd istehlakçıları məhsulun və xidmətin keyfiyyətinə inandırmaq deyilmi? Nəzərə alaq ki, reklam kampaniyası burada bir vasitədir və reklam marketinq fəaliyyətinin ən öndə gedən seqmentlərindən biridir. Deməli, buradan belə bir nəticəyə gəlmək mümkündür ki, biz marketoloq olmasaq da, istər-istəməz marketinqlə məşğuluq.

Bu gün muxtar respublikamızın iqtisadi inkişafı daha çox yeni müəssisələrin yaranması, mövcud şirkətlərin fəaliyyətinin genişləndirilməsi ilə xarakterizə olunur. Bu da, öz növbəsində, rəqabət bazarının genişlənməsini zəruri edir. Buna görə də yaxın gələcəkdə marketinq fəaliyyətinə ehtiyac daha da artacaq. Deməli, marketoloqlara da ehtiyacımız artacaq. Marketoloq isə bu gün dünyada ən çox ehtiyac duyulan peşələrdən biridir. Qeyd edək ki, marketinq fəaliyyəti sırf iqtisadi nəzəriyyələr üzərində deyil, həm də praktika və təcrübə əsasında qurulur. O zaman muxtar respublikamızdakı ali təhsil müəssisələrinin müvafiq kadr hazırlayan bölmələri ilə yerli şirkətlərin birgə əməkdaşlığı da bu işə öz töhfəsini verə bilər. Unutmayaq ki, marketoloq yenilikçi, sərhədsiz düşünə bilən, risk etməkdən qorxmayan və ən əsası inandırmağı bacaran insanların peşəsidir.

**Səbuhi HƏSƏNOV**

*Vətən hardan başlanır? Sərhəddənmi? Belə düşünənlər var, qoy kim necə düşünürsə, elə düşüncəsində də qalsın. Vətən mənim evimdən başlanır, mənim küçəmdən başlanır, mənim məhəlləmdən, kəndimdən, şəhərimdən başlanır və bir kəpənək qanadı da, bir şibyə də, mamır da, bir lalə da, bənövşə də, zirinc də, bir sözlə, bu torpağımın yetirdiyi nə varsa, hamısı Vətəndir. Vallah, lap oxumaq istərdim: bura Vətəndir, səsim çatandır, ünüm yetəndir. Təkcə bumu? Məmməd Araz demişkən: "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim". Bir də Rəşid Behbudov oxuyardı: "Bir anamdan, bir də səndən doya bilmirəm, ey Vətən". Bu deyimlərin lap öncəsi Abbas Səhhətin təbirincə desək: Vətəni sevməyən insan olmaz, |Olsa da, ol şəxsdə vicdan olmaz.*

*Sərhəd kəndlərimiz*

# Vətən hardan başlanır?

Bu fikirləri, düşüncələri beynimdə sağa-sola döndərə-döndərə üzüyuxarı dağlara sarı gedirəm. Sağımda-solumda yalçın qayalar, zirvəsi papaq düşürən ucalıqlar, aşağıda şaqqıltı ilə axan çay, bu çayı bağrına basan yaşıllıqlar, vadi boyunca səpələnən sürülər, naxırlar, özlərini qaya kölgəsinə verən çobanlar, naxırçılar, yan-yörəmdən sürətlə ötüb keçən bahalı maşınlar, ən başlıcası isə rahat dağ yolu.

Budəfəki yolum da sərhəd kəndlərinə, dağ kəndlərinə – Gərməçataq, Aşağı-Yuxarı Buzqov kəndlərinədir.

Hər hansı bölgənin, yaxud ölkənin tanınması üçün çox şərtlər vardır. Amma bu şərtlərin arasında yol infrastrukturu çox önəmlidir. Naxçıvan şəhərindən Aşağı Buzqov kəndinə 36 kilometrlik məsafə var. Nəzərabad kəndi körpüsündən Cəhri kəndi istiqamətinə dönər-dönməz budaqları az qala buludlara çatan qələmə ağaclarının qol-boyunluğuna düşürsən; yol da ki, necə deyərlər, lap əl içi kimi. Cəhri kəndi, Gülşənabad, Payız kəndləri arxada qalır və bundan sonra dolaylı dağ yolu başlanır. Avqust ayının qorabişirən Günəşi yan-yörədəki dağların ot-alafını saraldıb-soldurub. Amma aşağıda – çay yatağı vadisində yamyaşıl kollar, yulğunlar, yemişan kolları dağların sarımtıl ab-havasına bir bahar nəfəsi gətirir sanki. Dağ dolaylarını hərlənə-fırlana, yan-yörəmdəki bu əsrarəngiz gözəlliklərə məftun ola-ola düşünürəm, ulu Tanrı bizə necə nemətlər, gözəlliklər bəxş edib. Yadıma ulu öndərimiz Heydər Əliyevin bir kəlamı düşür: ***"Tarixini bilən, ölkəsini tanıyan xalq güclüdür".*** Ürəyimdə təskinlik tapır, bir az rahatlanıram ki, nə yaxşı bir də təzədən buralara güzar saldım. Yavaş-yavaş papaqdüşürən dağ zirvələrinin ucalıqları arxada qalır, daha doğrusu, elə bil qayalıqlar kənara çəkilib yolçuya "buyur" deyir, alatala yaşıllıqları olan düzəngahlar, bu düzəngahlarda sürülər, naxırlar görünür. Hələlik bir qədər uzaqda, ceviz ağaclarının altında gizlənən və təkəmseyrək görünən üstükirəmitli kənd evləri. Bilirəm ki, ayın-ilin bu vədəsində kənd evlərini tam aydınlığı ilə görmək çətindir. Nədən ki, maşallah olsun, o qədər ağac-budaq var ki, iynə atsan, yerə düşməz, evlər necə görünsün – bura Aşağı Buzqov kəndidir.

Bəli, hörmətli oxucu, elə söhbətimizi də burdan başlayaq. Ondan başlayaq ki, növbəti səfərimdəki kəndlərin hamısı sərhəd kəndləridir, mənfur düşmənlə qabaq-qənşər duran Vətən torpaqlarıdır, bir qarışını belə nədir, bir kəpənək qanadını belə, bir parça qaya mamırını belə, bir damla suyunu belə, uca, müqəddəs tutanləngərli bir köç kimi dünənimizdən bu günümüzə gələn və elə eyni ləngərlə sabaha irələyən soykökümüzün ana yurdudur. Oxucuya Aşağı Buzqov kəndi haqqında ötəri məlumat: 284 evi, 303 təsərrüfatı var. Kəndlər barədə yazarkən bir rəqəm məni daha çox sevindirir. Bu, nədir? Təsərrüfat evdən çoxdur, yəni evlər azalmır, çoxalır, yeni-yeni ailələr yaranır, sakinlər öz dədə-baba ocaqlarına daha ürəkdən, daha möhkəm bağlanırlar. Yeni ocaqlar yanır, yeni işıqlar parlayır, özü də harda, düşmənə gözdağı olan dağ kəndlərimizdə.

Aşağı Buzqovda məni qürurlandıran çox şey gördüm, amma hamısından əzəli, hamısından ucası üçrəngli bayrağımızın əzəmətlə dalğalanması oldu. Çay vadisindən axıb gələn nəsim sanki ona tumar çəkir, Azərbaycan adında bir məmləkətin mübarək himnini bütün səmaya yayırdı.

Bu, mənim düşüncələrim idi, bəs həyat həqiqətləri necə idi? Başqa bölgələrimizi deyə bilmərəm, amma bu il Naxçıvanımızda yay bir qədər quraqlıq keçir. Bir az geriyə qayıdım: yol boyu əkilmiş ağaclara avtomaşınlarla elə bir ucdan su daşıyıb verirdilər. Vallah, qəhrəmanlıqdır, ağac bir deyil, iki deyil, min deyil, yüz minlərlədir. Eşq olsun bu yaşıllığı düşünənə, halal olsun onu yaşadanlara.

Qayıdıram yenə Buzqov kəndinə. Yol boyu sıralanan kənd evləri, həyət-bacalar bolluqdan, bərəkətdən xəbər verir. Elə həyət görmürəm ki, yan-yana düzülən arı pətəkləri olmasın. Üst-üstə hesablayanda kənddə 800-dən yuxarı arı ailəsi var və bir də təxmini hesablayanda ki, hər qutudan ən azı 10 kiloqram bal çıxır, onda belə qərara gəlirəm ki, vallah, bunlar bal içində üzürlər. Camaatın 2 mindən yuxarı qoyun-quzusu var. Hər il buzqovlular ağac-budaqdan ən azı 15 tondan çox ceviz çırpır. Kənddən bir az aralıda qoyun-quzu yatağı görünür. Bura buzqovlu Nazim Allahverdiyevin fermasıdır. Hələlik min başdan yuxarı xırdabuynuzlusu var; hələ bala-bulasını demirəm. Kənddən hər gün 40-dan yuxarı minik maşını çıxır. Hara səmt döndərirsən, qoyun-quzudur, arı pətəkləridir. Buzqovluların nə az, nə çox, 7846 hektar örüş-otlağı var, nə qədər mal-heyvan saxlayırsan, buyur, saxla. Dövlət də hamısının əlindən tutur, kredit verir, deyir təsərrüfatını qur, gün-güzəranını sahmana sal. İsa Kərimov, İbrahim Qasımov, Misir Məhərrəmov və neçə-neçə başqaları dövlətin bu yardımından fayda götürürlər. Aşağı Buzqov kəndində elə ev, elə həyət yoxdur ki, içməli, suvarma suyu olmasın. Kəndin icra nümayəndəsi Hüseyn Bağırovdan soruşuram ki, buzqovlulardan ünvanlı sosial yardım alan varmı? Cavabı belə olur: "Var, 5-6 il bundan irəli, hardasa, 35 ailə alırdı, indi onların sayı 5-6-ya enib". Bu, nə deməkdir? İnsanlar ələbaxımlılıqdan uzaqlaşırlar, daha çox əllərinin zəhmətinə güvənirlər, bilirlər ki, ruzi-bərəkət əllərinin altındadır. Bir məsələni də hörmətli oxucunun nəzərinə çatdırım ki, Aşağı Buzqov kəndi dəniz səviyyəsindən 2 min 200 metr hündürlükdədir və buna görə də əməkhaqlarına, təqaüdlərinə dövlət əlavə olaraq 20 faiz də pul ödəyir. Daha nə istəyirsən? Əlbəttə ki, kəndlinin birinci istəyi torpaqdır. Bu kəndin də bütün torpaqları dədə malı kimi kənd camaatına paylanılıb və adambaşına min kvadratmetr torpaq verilib. 1068 nəfər əhalisi olan Aşağı Buzqov kəndinin lap ortasından üzüyuxarı bir yol ayrılır. Bu yol Yuxarı Buzqov kəndinədir. Amma daha bir yol ayrı yoldur, gah dağ zirvəsinə qalxırsan, gah da şırıl-şırıl axan dağ çayının vadisinə enirsən. Yan-yörədəki təbiət gözəlliklərini gərək öz gözünlə görəsən, yalçın qayalardakı kəkliklərin qaqqıltısını özün eşidəsən, kəklikotunun, dağçiçəyinin, adınıbəhsini bilmədiyim neçə-neçə otəncərin bihuşedici ətrindən valeh olasan, arandakı yandırıcı Günəşin əvəzində buradakı sərin nəsimin ürəkaçan ləzzətini görəsən. İlahi, Naxçıvan nə gözəldir, Vətən nə gözəldir?!

Artıq Şorlar dağı, Şəkəruçan, Qaraqum dağı, Günorta qayası arxada qalıb, bundan sonra Yellicə başlanır, Pələngli başlanır, hərəsinə bir kişi, bir qəhrəmanlıq adı qoyulan dağlar başlanır. "Dədə-Qorqud" boylarından axıb gələn Qazan xan yaylağı da bu həndəvərdədir. Yuxarı buzqovlu Abbas Ələkbərov 170 baş keçisini elə həmin Qazan xan yaylağında saxlayır. Keçi də ki inək deyil, camış deyil, ildə bir bala verə, ya verməyə. İl olmaz ki, hərəsi bir cüt bala verməsin. "İndi sən, müxbir qardaş, vurma cədvəlinən hesabla gör, nə qədər gəlir-çıxarım olur?" Vallah, nə gəlirini hesablaya bildim, nə çıxarını?! Allah bərəkətini daha da artırsın, hələ 6 baş inəyini, 40 baş qoyununu, 80 arı ailəsini əlavə eləyəndə vurma-bölmə cədvəlləri qalır körpünün o tayında. Bunları nəyə görə yazdım? Ona görə yazmadım ki, Abbas kişinin bu qədər varı-dövləti var. Ona görə yazdım ki, Abbas kişi düşmənlə min beş yüz metrlik üzbəsurət bir məsafədə həm özünə, həm də qohum-əqrəbasına gün-güzəran qurub. Axı bu qədər mal-heyvana baxmaq, qulluq eləmək bir adamın işi deyil.

Yuxarı Buzqov dəniz səviyyəsindən nə az, nə çox, 3 min metr hündürlükdədir. Belə ucalıqda yaşamaq hər oğulun işi deyil. Amma Hidayət Ələsgərov 200 baş qoyun, 5 baş inək saxlayır. Kənddə 700 arı ailəsi var, hansı evə getsən, ağızşirinliyi ilə çıxacaqsan; elə həyat yoxdur ki, heç olmasa, 30-40 arı pətəyi düzülməsin. Yadımda ikən bir-iki cümləni əlavə edim: bu qədər vardövlətlə bərabər, kənddə hamı dövlətdən, necə deyərlər, pul da alır. Elə ev, ailə var ki, hər ay 700-800 manat pul gəliri də olur; dağın başında bu qədər pulu xərclə görüm, necə xərcləyirsən?

Gərməçataq kəndi Yuxarı Buzqovdan çox aşağıdadır, düşmənlə üzbəsurət dayanıb. Kəndin girəcəyində bir abidə ucalır: bu, kənd uğrunda ermənilərlə döyüşdə şəhid olmuş Vəli Zeynalovun şərəfinə ucaldılmış abidədir. Vəli Zeynalov bu kəndli deyildi, Naxçıvan şəhərindən idi, amma Vətən dar ayaqda olanda hər kəs də ayaqda olmalıdır. Vətənin hər qarışı müqəddəsdir. Kəndin icra nümayəndəsi Lazım Mirzəyevi gözlədim, nəhayət ki, gəldi, üzrxahlıq elədi, dedi: "Vallah, başımı qaşımağa da macal tapmıram, toya hazırlaşıram – oğlumun toyuna, Zülfü Mirzəyevin. Şahbuzun Ağbulaq kəndində müəllim işləyib, orda da birini sevib. İndi gərək Gərməçataqdan Ağbulağa gedək, gəlin gətirək, toy çadırı quraq, qohum-əqrəbaya xəbər göndərək, qazanlar asılsın, məclisə hazırlıq görülsün. Dağ kəndidir, hər gün toy olmur ki, bizimkilər də, Allah canlarına sağlıq versin, eşidən səhərdən axşama kimi toy evindədir".

Lazım kişinin bu məlumatından sonra nə haqqım vardı ki, onun gecikməyini qınayım, ona görə də qeyd dəftərçəmi büküb gözaydınlığı verdim, fikirləşdim ki, kişinin başının belə qarışıq vədəsində daha onu sorğu-suala tutmazlar.

*Qoy kənddə toy çalınsın, qoy kənddə təzə bir ailə qurulsun, qoy kənddə daha bir ev tikilsin, qoy kənddə bir işıq da yansın, qoy bu işıqlar artsın, çoxalsın, Günəş kimi düzlərimizə səpələnsin. Dağlara yayılan hər toy sədası, cavanların, qız-gəlinlərin qol götürüb oynaması və hər dəfə də dağlara baxa-baxa igid oğullarımızın bu nidası insan qəlbini Vətən məhəbbəti, yurd sevgisi ilə doldurur: Ehey, bura Vətəndir, bura Vətəndir, Vətəndir!*

**Nurəddin BABAYEV**
*Azərbaycan Respublikasının əməkdar jurnalisti*

*Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da əhalinin torpağa bağlılığını artırmaq, iqtisadiyyatımızın əsasını təşkil edən kənd təsərrüfatını inkişaf etdirmək üçün həyata keçirilən ardıcıl tədbirlər öz bəhrəsini verir. Bunu Şərur rayonunun timsalında da görmək mümkündür. Belə ki, rayonda Arpaçay dəryaçasının hesabına su probleminin həll edilməsi və Araz çayı boyunca nasos stansiyalarının işə salınması bölgədə əkinçiliyə marağı xeyli artırıb, kənd təsərrüfatının inkişafında yüksəlişə nail olunub.*

# Dəyirmana təzə dən gəlir...

## *Bu isə firavan həyatdan, xoş güzərandan soraq verir*

Təqdirəlayiq hal isə digər bölgələrimiz kimi, Şərur rayonunda da taxılçılığın aparıcı sahəyə çevrilməsidir. Bunu şərurluların bu sahədə əldə etdikləri nailiyyətlərin göstəricisi olan statistik rəqəmlər də təsdiqləyir. Təkcə cari ildə rayonda 9184,1 hektar sahədən 28 min 249 ton yüksəkkeyfiyyətli taxıl istehsal olunub. Bu ilin payızında daha çox sahədə taxıl əkininin keçirilməsi planlaşdırılıb. Ümumiyyətlə, Şərurda bu mühüm strateji ərzaq məhsulunun istehsalına maraq ilbəil artır. Bunun başlıca səbəblərindən biri rayonda un dəyirmanlarının tikilib istifadəyə verilməsidir. Hazırda burada 4 müasirtipli un dəyirmanı fəaliyyət göstərir. Odur ki, şərurlular da yetişdirdikləri buğdanı una çevirmək üçün heç bir çətinlik çəkmirlər.

Bu günlərdə dəyirmanlardan birinə – rayon mərkəzində yerləşən Şərur Taxıl Məhsulları Emalı Müəssisəsinə yollandıq. Yol boyu xəyal məni çox uzaqlara aparmışdı. Keçmiş, uşaqlıq illərim hafizəmdə canlanırdı...

...Qonşu Vərməziyar kəndinin üst tərəfində çaydaşından tikilmiş balaca bir dəyirman vardı. Deyilənə görə, yaşı çox idi. Kiçik, ancaq əyilib keçilə bilən, açanda-örtəndə cırıldayan taxta qapısı vardı. Yaşlı bir kişinin idarə etdiyi bu dəyirmanın həndəvərinə biz uşaqları buraxmazdılar. Ora hərdən oğrunca gedər, dəyirmanın arxasında suyun hündürlükdən axıb nova tökülməsinə baxardıq. Dəyirmanın qarşısı həmişə at, öküz, ulaq arabaları və dəvələrlə dolu olardı. Bunlar buğdanı dəyirmana gətirər, unu aparardılar.

O günləri xatırlayanda çox ağır zamanədən, qıtlıq illərindən yaxa qurtarmağımıza kim sevinməz? Müasirtipli un dəyirmanı ilə tanışlıq zamanı bir daha duydum ki, o keçmişin qapısından bu günün astanasına ayaq qoymaq heç də asan başa gəlməyib. Ölkəni dünəndən bu günə gətirən, bunun üçün misilsiz xidmətlər göstərən ulu öndərimiz Heydər Əliyev xalqın gələcəyinə hesablanan siyasətin əsasını qoyub. Sevindirici haldır ki, bu gün o möhtəşəm planlar ardıcıllıqla həyata keçirilir. Şərur Taxıl Məhsulları Emalı Müəssisəsi də yeniliyin təzahürüdür.

Dəyirman 2002-ci ildə müasir texnologiya əsasında qurulub, bu il isə dəyirmanda təmir işləri aparılıb, mövsüm ərzində ehtiyac duyulan ehtiyat hissələr alınıb.

Müəssisənin rəhbəri Nəcəf Orucovla söhbətimizdə öyrəndik ki, dəyirmanda ötən il min tondan artıq dən üyüdülüb, cari ildə bu rəqəmin daha yüksək olacağı gözlənilir. Nəcəf Orucov bildirdi ki, muxtar respublikamızda əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər, atılan addımlar hamımızı sevindirir. Sahibkarlıq fəaliyyətinə belə geniş meydan verilməsi də bu tədbirlərin bir qoludur. Artıq diyarımızda özəl bölmənin və sahibkarlığın inkişafı, orta təbəqənin formalaşması iqtisadi siyasətin əsas istiqamətlərindən birinə çevrilib.

Sonra istehsal prosesi ilə tanış olduq: buğda əvvəlcə beton çəlləyə tökülür, buğdaələyən maşına keçir. Burada taxıl təmizlənir və məhsul yuyulmaq üçün digər makinaya ötürülür. Həmin makina buğdanı yuyur və qurudur. Yuyulmuş buğda 1-2 saat dincə qoyulur. Sonrakı prosesdə buğdanın üst hissəsi, yəni qabığı soyulur və oradan əsas aparata, döyən avadanlığa ötürülür. Buğda döyülüb un halına salınandan sonra ələyə keçir. Ələk vasitəsilə məhsul birinci növ una, eləcə də kəpəyə ayrılır. "Şərur unu" yazılmış kisələrə doldurulur, elektron tərəzidə çəkilir və ağzı tikilərək sifarişçiyə verilir. Dəyirmandakı proseslər kompüter vasitəsilə idarə olunur.

Öyrəndik ki, burada quraşdırılan avadanlıqlar Türkiyə Respublikasının istehsalıdır. Sutkada 24 ton dən üyütmək gücünə malik olan dəyirman tək şərurluların deyil, qonşu Sədərək və Kəngərli rayonlarının da una olan tələbatının ödənilməsində böyük əhəmiyyət kəsb edir.

Dəyirmanda bir neçə taxılçı ilə söhbət etdik. Onlar müəssisənin fəaliyyətindən, burada xidmətin səviyyəsindən razılıqlarını bildirdilər. Axura kənd sakini Vaqif Orucov dedi:

– Torpaq payı alandan ona yaxın durmamışdım. Elə ki rayonumuzda müasirtipli un dəyirmanları fəaliyyətə başladı, mən də torpağa üz tutdum. İndi hər il torpaqda buğda yetişdirirəm. Həm ailəmizin illik ruzisini əldə edirəm, həm də istehsal etdiyim məhsulu satışa çıxarıram. Dəyirmanın bir də xeyri odur ki, mal-heyvanımın kəpəyi üçün də il boyu pul xərcləmirəm.

"Hər ton dənin üyüdülməsi üçün 26 manat qiymətin müəyyənləşdirilməsi də sərfəlidir", – deyə Şərur şəhər sakini Yaqub Əliverdiyev onun sözlərinə əlavə etdi:

– Dəyirmana gələn taxıl dolu maşın karvanının ardı-arası kəsilmirdi. Varlığa nə darlıq. Şərur əkinçilərinin builki əməyi bərəkət bağlayıb. Elin sərvəti, sarı buğdası aşıb-daşır. Bu isə firavan həyatdan, xoş güzərandan soraq verir.

Müəssisənin nəzdində lavaş sexi də fəaliyyət göstərir. Lavaşın keyfiyyətinə ciddi diqqət yetirildiyini bildirən Nəcəf Orucov onu da qeyd etdi ki, ilk növbədə, insanların sağlamlığı qorunmalıdır. Buna görə də lavaşın tərkibi, keyfiyyətinin yüksək olması diqqətdə saxlanılır.

Beləcə, Şərur Taxıl Məhsulları Emalı Müəssisəsindən xoş təəssüratla ayrılırıq. Bir az aralıda, magistral yolun qarşı tərəfində Şəhriyar kəndinin sahələri görünür. Traktorlar burada şum edir. Payızlıq taxıl əkininə hazırlıq görülür, gələn ilin bol məhsulu üçün indidən zəmin yaradılır.

Bəli, torpaq islahatı kəndə və kəndliyə sahibkarlıq hissi aşılayıb. İndi kənd adamının bu torpaqda becərdiyi məhsullar arasında taxıla böyük maraq göstərilməsi də təbiidir. Çünki bu vacib sahəyə dövlət dəstəyi yetərincədir. Elə bunun nəticəsidir ki, muxtar respublikamızın hər yerində un dəyirmanları tikilib və burada üyüdülən buğdanın unundan bişirilən çörəklər süfrələrimizin bəzəyinə çevrilib.

**Cəfər ƏLİYEV**

*Gəncliyimiz, gələcəyimiz*

## Gələcəyin həkimləri

***Sağlam cəmiyyətdə sağlam övladlar yetişir. Bugünkü gəncliyin xoşbəxtliyi ondadır ki, onlar məhz belə bir cəmiyyətdə böyüyür, formalaşır, təhsil alırlar. Bir neçə ildir ki, ali və orta ixtisas təhsili müəssisələrinə test üsulu ilə keçirilən qəbul imtahanları özünün yüksək səmərəsini verir. Belə ki, gənclərimiz bu şəraitdə onlara göstərilən etimadı doğrultmağa çalışır və buna nail olurlar. Savadlı, bilikli və intellektli gənclərə ali məktəblərin qapıları açıqdır. Bu il də qəbul imtahanları şəffaf və obyektiv şəkildə aparılıb, məzunların məktəblərdə qazandıqları bilik özünün müsbət nəticəsini göstərib. Budur, uğur qazanan dörd gəncin tərcümeyi-halı və təhsildə qazandıqları uğurlar. Onları sizinlə tanış etmək istəyirəm. Öncə bir məqamı qeyd edim ki, bu gəncləri birləşdirən bir neçə ortaq cəhət var. Culfa rayonundan olan bu dörd gəncin hər biri builki qəbul imtahanında 672 bal toplayaraq Azərbaycan Tibb Universitetinin "müalicə işi" ixtisasına qəbul olunub. Həmin gənclərlə həmsöhbət oldum, təəssüratlarını öyrəndim.***



***Süleyman ƏLƏKBƏROV:*** – Mən 1997-ci ildə Culfa şəhərində anadan olmuşam. Culfa şəhər 3 nömrəli tam orta məktəbi "Qızıl" medalla bitirmişəm. Tələbə adını qazanmaq hər bir insanın arzusudur. Amma mən ən çox ona görə sevinirəm ki, arzuladığım ixtisasa qəbul olunmuşam. Çəkdiyim zəhmət hədər getmədi. Ali məktəb auditoriyasına qədəm qoyacaq bir tələbə kimi onu da yaxşı dərk edirəm ki, üzərimə böyük məsuliyyət düşür. Çünki biz – bugünkü tələbələr ölkəmizin sabahına cavabdeh olan mütəxəssislər olmalıyıq, müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi üçün hərtərəfli biliyə malik kadrlar kimi yetişməliyik. Ulu öndər Heydər Əliyevin bizə əmanəti olan müstəqil dövlətimizi qorumaq və Vətəninə layiqli övlad olmaq hər bir azərbaycanlı gəncin müqəddəs vəzifəsi olmalıdır.



***Pəri MƏMİŞOVA:*** – Mən Culfa rayonunun Əlincə kənd tam orta məktəbini "Gümüş" medalla bitirmişəm. Uşaqlıqdan həkim olmaq ən böyük arzularımdan biri olub. Ona görə var gücümlə çalışdım və zəhmətimin bəhrəsini gördüm. Tələbə adını qazanmağımda dövlətimizin biz gənclərə qayğısını, yaradılmış şəraiti başlıca amil hesab edirəm. Yaşadığımız dövr indiki gənclərdən yüksək bilik, intellektual səviyyə tələb edir. Bunlara nail olmaq üçün yaradılan şəraitdən düzgün və səmərəli istifadə edən hər kəs istəyinə nail ola bilər. İndi muxtar respublikada təhsilə qayğı əsas vəzifəyə çevrilib. Qəbul imtahanlarından sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü biz gənclərin həyatında ən mənalı anlardan biri oldu. Təhsilə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımızı bildirir, bütün sahələrdə etimadı doğruldacağımıza söz veririk.



***Kənan NİFTİYEV:*** – Mən Culfa rayon Saltaq kənd tam orta məktəbini "Qızıl" medalla bitirmişəm. Ağ xalat geyinib insanların sağlamlığı keşiyində durmaq ən böyük arzularımdan olub. İndi dünyanın ən xoşbəxt insanlarından biriyəm. Çünki həkimlik peşəsinə yiyələnmək üçün atdığım ilk addım uğurlu oldu. Bu uğurum üçün, ilk növbədə, müəllimlərimə ürəkdən minnətdarlığımı bildirirəm. Çalışacağam ki, tələbəsi olduğum ali məktəbdə elmin sirlərini dərindən öyrənim, ixtisasıma mükəmməl yiyələnim, Vətənimizin çiçəklənməsi naminə əlimdən gələni edim.



***Heydər HÜSEYNBƏYLİ:*** – Mən isə Bənəniyar kənd tam orta məktəbinin məzunuyam. Tələbə adını qazandığımı, xüsusən də arzuladığım ixtisasa qəbul olunduğumu eşidəndən sevincimin həddi-hüdudu yoxdur. Ancaq bilirəm ki, məsuliyyətim bundan sonra daha çox olacaq. Yaxşı həkim olmaq üçün daim öz üzərimdə çalışmalıyam. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin biz tələbə-gənclərə tövsiyəsi də bu oldu. Çalışacağam ki, təhsilimi uğurla başa vurum, savadlı həkim kimi xalqımın sağlamlığının keşiyində dayanım. Ən əsası isə vətənpərvər bir gənc olum.

Həmsöhbət olduğum bu gənclər qəbul olunduqları ali təhsil ocağının yerləşdiyi Bakı şəhərinə yola düşəcəklər. Yolları uğurlu olsun! İnanırıq ki, gələcəyin həkimləri Naxçıvanda gənclərə göstərilən etimadı doğruldacaq, sübut edəcəklər ki, bu qədim diyarda bu gün təhsil müasir standartlar səviyyəsində qurulub, inkişafın ən üstün istiqamət verilən sahələrdən birinə çevrilib. Təkcə bir rayonun timsalında onlar da bunu vurğuladılar. Söz verdilər ki, ali təhsil aldıqları müəssisələrdə Naxçıvanın adını uca tutacaqlar. İntellektual səviyyəli mütəxəssislər kimi doğma diyarımıza qayıdacaq və əhalinin sağlamlığı keşiyində duracaqlar.

**Sara ƏZİMOVA**

## Taekvando üzrə şəhər birinciliyi keçirilib

14-15 avqust 2014-cü il tarixlərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında taekvando üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi birincilikdə 6 çəki dərəcəsində 40 idmançı mübarizə aparıb.

Yarışı Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov açıq elan edib. Gənclər və İdman Nazirliyinin əməkdaşı Tahir Məmmədli və Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Sonra yarışa start verilib. 22, 26, 31, 35, 38 və 42 kiloqram çəki dərəcələrində keçirilən birincilikdə müvafiq olaraq Cavad Rəhimli, Kamal Heydərli, İntiqam Məmmədov, Nicat Əliyev, Elvin Salayev və Mehdi Əhmədzadə qalib olublar.

Sonda qaliblərə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***Yulaf (avena) çox qədim dövrlərdən Asiyanın qərbi ilə şərqi arasında olan ölkələrdə geniş ərazilərdə yayılmış bitkidir. Bu bitkinin yabanı və mədəni növləri müxtəlif məqsədlər üçün becərilib artırılmışdır. Azərbaycanın əksər ərazilərində, o cümlədən Naxçıvan Muxtar Respublikasında daha çox əkilən taxıl sahələrində yabanı forması olan tarla yulafçası geniş yayılmışdır.***

## Yulaf bitkisinin səciyyəvi xüsusiyyətləri və əhəmiyyəti





Naxçıvan ərazisində yulafın səciyyəvi xüsusiyyətlərinin öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatında 2011-ci ildə kiçik ərazidə sınaq əkini aparılmışdır. Fenoloji müşahidələrin nəticəsi göstərmişdir ki, ərazidə əkin özünü doğruldur və əkin sahələrinin genişləndirilməsi məqsədəuyğundur.

***Botaniki xüsusiyyətləri.*** Xarici görünüşünə görə vələmirə çox oxşayır və hətta onu tozlandırıb növ keyfiyyətini dəyişir. Toxumları vələmirin toxumuna qarışdıqda çətin seçilir. Bol nişastalı dən məhsulu üçün yetişdirilən tarla bitkisidir. Cücərtisi açıq-yaşıl rəngli, olduqca zərifdir. Çiçək qrupu şaxələnən, yaxud şaxələnməyən, sıxılmış və ya dağınıq süpürgə təşkil edir. Sünbülcüyü 2-3 və çoxçiçəklidir.

Sünbülcük pulcuqları enli, qabarıq, uzununa damarlı, çiçək pulcuqlarından uzun, yaxud onlara bərabərdir. Sünbülcük saplağına öz əsası ilə birləşən ən iri çiçək aşağı, qısasaplaqlı və nisbətən xırda olanı isə yuxarı çiçək adlanır. Aşağı çiçək-də faraş əmələ gəlir, normal inkişaf edir və hamısından iri olur. Daxili çiçək pulcuğu şəffaf, zərif, uzununa ikitillidir. Toxumlarında uzun, burulmuş və dirsək şəklində əyilmiş qılçıqları olur. Torpağa düşmüş toxumlar yığılıb açılan həmin qılçıqların köməyi ilə hərəkət edərək əlverişli şəraitdə cücərdilir.

Yulafın 1000 dəninin mütləq çəkisi 35-40, bəzən də 50 qrama qədər olur.

Dənin pərdəliliyi əsas təsərrüfat xüsusiyyəti hesab edilir və şəraitdən asılı olaraq, dənin ümumi çəkisinin 20-40 faizini təşkil edir. Çiçəklənmə fazasında quraqlıq olduqda dən əmələ gətirməyən boş çiçəklərin sayı artır. Eləcə də yetişmə dövründə qida maddələrinin və nəmliyin çatışmaması nəticəsində dənlər xırda və cılız olur.

Məlumat üçün bildirək ki, tədqiqat nəticəsində yulafın 50-yə yaxın növü müəyyənləşdirilmişdir. Bu növlər, əsasən, çiçək qruplarının yerləşdiyi süpürgəciklərin vəziyyətinə, sünbülcüyün qılçıqlılığına və çiçək pulcuğunun (xarici çiçək pulcuğunun) rənginə görə təyin edilir.

Yulafda qılçıqlılıq sabit xassə olmadığı üçün xarici mühitin təsirindən çox kəskin dəyişir (azalır və çoxalır). Ona görə də növ müxtəlifliyini təyin edərkən bir süpürgədə olan qılçıqlı sünbülcüklərin sayı 25-dən çox olarsa, həmin süpürgə qılçıqlı hesab edilir. Çiçək pulcuğunun rəngi əsas növ müxtəlifliyi əlaməti hesab edilir, ağ, sarı, boz, darçını, qara olur.

***Tətbiq olunan aqrotexnika.*** Yulafı cərgəarası becərilən bitkilər və dənli-paxlalılardan sonra növbələşdirmək daha əlverişlidir. Azot elementinə tələbkar olduğundan onun dənli-paxlalı bitkilərdən, xüsusən noxuddan sonra növbələşdirilməsi daha səmərəlidir. Yulaf bitkisi nəmliyə çox tələbat göstərən və alaqlanmaya dözməyəndir.

Naxçıvan Muxtar Respublikası şəraitində herik tarlasından sonra da becərmək olar. Çuğundur bitkisindən sonra yulafı növbələşdirmək məsləhət görülmür. Ona görə ki, hər iki bitkinin zərərvericiləri eynidir. Yulaf becəriləcək tarlaların əsas və səpinqabağı becərilmə üsulları torpaq-iqlim şəraitindən və digər səbəblərdən asılı olaraq müəyyənləşdirilir. Əgər sələf bitkiləri payızlıq taxıllardırsa, məhsul yığıldıqdan sonra kövşənlik üzlənir və 25-27 santimetr dərinliyində şum qaldırılır. Səpindən 10-15 gün qabaq məsaməliliyi ağır olan torpaqlarda arat aparılır. Səpindən əvvəl 10-12 santimetr dərinlikdə torpağı yumşaltmaq məqsədilə kultivasiya çəkilməsi də tövsiyə olunur. Səpinqabağı becərmədə toxum səpilən dərinlikdə torpağa kultivasiya çəkilir və malalanır.

Yulaf üzvi və mineral gübrələrin verilməsinə tələbkardır. Xüsusən azot gübrəsini sevir. Hər bir hektara 150 kiloqram azot, 120 kiloqram fosfor, 120 kiloqram kalium gübrələrinin verilməsi torpaq tipindən asılı olaraq yaxşı nəticə verir.

Səpindən əvvəl toxumlar təmizlənərək iriliyinə görə çeşidlənir, qranozon və ya merkuran preparatlarının biri ilə quru üsulla dərmanlanır. Tozlu sürməyə qarşı 40 faizli formalin məhlulu ilə tona 0,4 litr hesabı ilə səpinə 3-4 gün qalmış dərmanlama aparılır. Səpindən 4-5 gün əvvəl toxumlar açıq havada işıq altında isidilir.

Səpin müddəti payızda orta gündəlik temperatur 12-14 dərəcə olduğu dövr hesab olunur. Səpin adi cərgəli və ya darcərgəli üsulla aparılır.

Muxtar respublika şəraitində hər hektara 200-250 kiloqram toxum səpilməsi məqsədəuyğun hesab olunub, toxumların basdırılma dərinliyinin 4-6 santimetr olması məsləhət görülür.

Toxum arata səpilməyibsə, şırım üsulu tətbiq edilməklə səpsuvar aparılır. Payız dövründə əkinlərdə alaqlama çox olarsa, onlara qarşı mübarizə aparmaq lazımdır. Erkən yazda tarla köndələninə malalanır. Eyni zamanda hektara 30 kiloqram azot və 20 kiloqram fosfor norması ilə birinci yemləmə gübrəsi verilir. İkinci yemləmə gübrəsi isə boruyaçıxma fazasının əvvəlində həyata keçirilir. Suvarma bölgələrində əkinlər 2-3 dəfə şırımla suvarılır. Su norması hektara 800-1000 kubmetr olmaqla bitkilərin inkişaf fazaları ilə əlaqələndirilməlidir.

Yulafın toxumları bir bərabərdə yetişmirlər. Süpürgənin uc hissəsində sünbülcüklərdə dənlər birinci yetişir. Süpürgənin aşağı hissəsindəki dənlər isə gec yetişirlər. Yulafı hədsiz tez biçmək də faydasızdır. Çünki bu zaman çoxlu yaşıl toxumlar alınır. Yulafın birbaşa yığılması dənin mum yetişkənlik dövründən başlanır. Yığımı qısa müddətə – 5-7 günə başa çatdırmaq lazımdır ki, dən itkisi minimuma endirilsin.

### *Bunları bilmək faydalıdır*

Bir xörək qaşığı yulaf bitkisini bir stəkan (200 qramlıq) qaynar suda 10-15 dəqiqə dəmləyib süzgəcdən keçirin. Gün ərzində belə dəmləmədən hazırlayaraq çay kimi 3-4 dəfə için. İçərkən içərisinə şəkər və ya digər qatqılar əlavə etmək olmaz. Bir ay istifadə etsəniz, gümrahlıq baxımından özünüzdə əsaslı dəyişiklik müşahidə edəcəksiniz.

Bir litr qaynar suya 40 qram yulaf samanı qatıb dəmləyin, sonra süzgəcdən keçirin. Süzülmüş mayedən gün ərzində iki dəfə, hər dəfədə üç stəkan hazırlamaqla için. Belə etsəniz yorğunluğunuz aradan qalxar, tərləmə azalar və bədənin oynaq hissələrində duzlaşma əmələ gəlməsinin qarşısı alınar.

Bir stəkan (200 qramlıq) yulaf dənini (plov hazırlayarkən düyünü stəkanla ölçdüyünüz kimi) bir litr suda qaynadın. Hədik şəklində dənlər bişərkən sonra gün ərzində 3-4 dəfə ürəyiniz istəyən miqdarda yeyin. Bu, öd yollarının iltihabının müalicəsində ən təsirli və əvəzsiz çarədir.

Qədim xalq təbabətçiləri yulaf bitkisini şəkər xəstəliyinin dərman buyururlar. Bu xəstəliyin müalicəsi üçün yulaf dəmləməsi belə hazırlanır: 100 qram yulaf üç stəkan (200 qramlıq) suda qaynadılır. Yeddi saat dəmdə saxlanılır, sonra süzülür. Mayedən gün ərzində yeməkdən əvvəl yarım stəkan olmaqla, üç dəfə içilir. Bu dəmləmə bir həftə ərzində müsbət təsirini göstərir.

**Əsgər HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

### İtmişdir

Babək rayonunun Nehrəm kənd sakini Əlmərdanov Rza Nəcəfqulu oğlunun adına olan JN-1851[A] inventar nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Mahmudoba kənd sakini Məmmədov Əbülfət Müzəffər oğlunun adına olan JN-080[C] inventar nömrəli, 10506018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun kollektivi iş yoldaşları Varis Quliyevə, əzizi
**VƏLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Kamal Axundov və kitabxananın kollektivi iş yoldaşları Xeyrulla Cəfərliyə, əzizi
**HÜSEYNQULUNUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktorun müavini: SƏYYAR MƏMMƏDOV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 697